# Nəzarət-Kassa Aparatı və Ciddi hesabat blanklarının tətbiqi xüsusiyyətləri





www.taxes.gov.az

BAKI - 2013

Bu buklet Azərbaycan  Respublikasının Vergilər Nazirliyi tərəfindən hazırlanmışdır, özündə nağd pul hesablaşmalarını, nəzarət kassa aparatı və ciddi hesabat blankları olan qəbzlərin tətbiqi xüsusiyyətlərini əks etdirir və maarifləndirmə məqsədi daşıyır.

# Mündəricat


- Giriş ........ 2
- NKA nədir? ........ 3
- Kassa aparatının yaranma tarixi ........ 3
- NKA-nın hansı növləri vardır? ........ 3
- NKA-nın tətbiqinin müsbət cəhətləri hansılardır? ........ 4
- NKA necə qeydiyyata alınır? ........ 5
- NKA tətbiq edən vergi ödəyicisi hansı tələblərə riayət etməlidir? ........ 7
- Ciddi hesabat blankları olan qəbz nədir? ........ 7
- Qəbzdə hansı məlumatlar əks olunmalıdır? ........ 7
- Nağd pul hesablaşmalarını NKA tətbiq edilmədən qəbzlər vasitəsilə həyata keçirilən fəaliyyət növləri hansılardır? ........ 8
- Nağd pul hesablaşmalarının aparılma qaydasının pozulması zamanı hansı maliyyə sanksiyaları tətbiq edilir? ........ 8
- Nağd pul hesablaşmalarının aparılması qaydasının pozulması zamanı hara müraciət edilməlidir? ........ 8

# GİRİŞ





Gündəlik həyatda hər birimiz ehtiyaclarımızı, tələbatımızı təmin etmək məqsədilə hansısa malların, xidmətlərin alıcısı kimi nağd hesablaşmaların iştirakçısı olaraq, ödənilmiş pulun əvəzində çekin, qəbzin təqdim olunmasının şahidi olmuşuq. Günbəgün təkrarlanan bu proseslərin adiliyinə baxmayaraq, nağd hesablaşmaların rəsmiləşdirilməsi qaydaları və formalarından, bu rəsmiləşdirilmənin maraqlarımızın təmin olunmasından, nağd pul hesablaşmaların aparılması zamanı tərəflərin hüquq və vəzifələrindən, kassa aparatlarının meydana gəlməsinin səbəbləri və tarixindən, müasir dövrdə istismar olunan nəzarət kassa aparatlarından, onların istismarının qanunvericilik əsasları və qaydalarından və s. bu kimi nağd hesablaşmalarla bağlı hər birimiz məlumatlı olmalıyıq.

Bir istehlakçı kimi istehlakçı hüquqlarınızın sığortalanmasında qeyd olunanlarla bağlı müəyyən həcmdə məlumatlı olmalısınız ki, lazım gəldikdə öz hüququnuzu tələb edə biləsiniz.

Eyni zamanda, gələcəkdə hər biriniz yalnız istehlakçı deyil, həm də iş adamı qismində əks mövqedə çıxış etməyiniz də istisna olunmur və bu zaman nağd hesablaşmaların aparılması ilə bağlı lazımi hərəkətlər barədə məlumatlı olmağınız tələb olunur.

Bunları nəzərə alaraq, nağd hesablaşmalar barədə biliklərinizi artırmaq məqsədilə nağd pul hesablaşmalarının aparılması zamanı tərəflərin hüquq və vəzifələri, eyni zamanda hər bir şəxs üçün faydalı və maraqlı xarakter daşıyan məlumatları özündə ehtiva edən  bu buklet hazırlanaraq diqqətinizə təqdim olunur.

# NKA nədir?

NKA - malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı nağd hesablaşmaların qeydiyyatında istifadə edilən, fiskal yaddaşa malik olan və vergi orqanlarında müəyyən olunmuş qaydada qeydiyyatdan keçən elektron avadanlıq və ya kompüter sistemidir.

# Kassa aparatının yaranma tarixi






Kassa aparatının yaranması gəlirin artmasında maraqlı olan satıcıların təşəbbüsü ilə olmuşdur. Bu aparatın ixtira edilməsi maraqlı tərzdə baş vermişdir. Belə ki, ABŞ-ın Ohayo ştatının Deyton şəhərində olan şərabçı Con Ritti Avropaya səyahət edərkən onun diqqətini valın dövr eləməsini hesablayan bir mexanizm cəlb etmiş, bu mexanizmin işləmə prinsipini əsas götürərək 1879-cu ildə ilk kassa aparatına patent almış, daha sonra isə onu Con Pattersona satmışdır. Sonuncu isə yaratdığı "National Cash Register Company" şirkəti vasitəsilə onların geniş yayılmasının əsasını qoymuşdur. O dövrdən etibarən kassa aparatı dəfələrlə təkmilləşdirilsə də malların (işlərin. xidmətlərin) satışı zamanı nağd hesablaşmaların qeydiyyatının həyata keçirilməsindən ibarət olan əsas funksiyalarını itirməmişdir.

# NKA-nın hansı növləri vardır?

Hazırkı dövrdə ticarət, iaşə, xidmət və digər fəaliyyət sahələrində əhali ilə nağd pul hesablaşmalarının aparılmasında tətbiq olunan NKA-lar funksional xarakteristikaları və istismar imkanlarına görə aşağıdakı kimi təsnifatlaşdırılmışdır:

1-ci qrup – avtonom istifadə olunan portativ (kiçik ölçülü) NKA;
2-ci qrup – passiv sistemli NKA;
3-cü qrup – kompüter uçot sistemli aktiv NKA;
4-cü qrup – fiskal qeydedici.

Avtonom istifadə olunan portativ (kiçik ölçülü) NKA – funksional imkan-

larını onun daxilində olan proqramla idarə edilən əlavə qurğular qoşulmaqla artıran nəzarət-kassa aparatıdır. Avtonom NKA-lara daim elektrik şəbəkəsinə qoşulmadan işləyə bilən portativ NKA-lar da aiddir.

Passiv sistemli NKA - kompüter-kassa sistemlərində işləyə bilən, lakin bu sistemin işini idarə etmək imkanı olmayan NKA-lardır. Passiv sistemli NKA avtonom NKA kimi də istifadə oluna bilər.

Kompüter uçot sistemli aktiv NKA - kompüter-kassa sistemlərində işləyə bilən və bu sistemin işini idarə edən NKA-lardır. Kompüter uçot sistemli aktiv NKA passiv sistemli və ya avtonom NKA kimi də istifadə oluna bilər.

Fiskal qeydedici - kompüter-kassa sisteminin tərkibində işləyə bilən və məlumatları əlaqə kanalı vasitəsi ilə qəbul edən NKA-dır.

Respublikamızda hal-hazırda ən çox avtonom növə aid edilən kassa aparatlarından istifadə olunur ki, onların da bir çox çeşidləri vardır. Yalnız Sahələrarası Ekspert Komissiyası tərəfindən istifadəsinə icazə verilərək Dövlət reyestrinə daxil edilən və müəyyən texniki göstəricilərə malik olan kassa aparatları istifadə edilə bilər.

## NKA-nın tətbiqinin müsbət cəhətləri hansılardır?

Malları (işləri, xidmətləri) təqdim edən şəxs üçün:

- sahibkarın satıcılarına nəzarətin gücləndirilməsi;
- mədaxil və məxaric edilmiş malların (işlərin, xidmətlərin) uçotunun rahat və dəqiq aparılması;
- malların (işlərin, xidmətlərin) dövriyyəsi üzrə istər operativ, istərsə də müəyyən tarixlərə görə hesabatların əldə edilməsi imkanının olması;
- istehlakçıların əsassız müdaxiləsinin qarşısının alınması.

Malları (işləri, xidmətləri) alan şəxs üçün:

- alınmış mallar keyfiyyətsiz və ya standartlara uyğun olmadıqda onun geri qaytarılmasının tələb edilməsi imkanının olması;
- satıcı malları (işləri, xidmətləri) təqdim edərkən alıcının aldadılması hallarının qarşısının alınması.

Təbii ki, istər vergi ödəyicisinin, istərsə də istehlakçılnın fərdi maraqlarının təmin olunmasından başqa NKA-nın tətbiqi ümumən cəmiyyətin maraqlarına da xidmət edir. Tərəflər arasında aparılan bütün əməliyyatların qeydə alınması, kölgə iqtisadiyyatının qarşısının alınmasına və vergilərin tam həcmdə dövlət büdcəsinə yığılmasına, nəticədə isə dövlətin qüdrəti və əhalinin rifah səviyyəsinin artmasına zəmanət verir.

# NKA necə qeydiyyata alınır?

### 1. Obyektin kodlaşdırılması



Vergi ödəyicisi

1) Ərizə

2) Fəaliyyətin yerinə yetiriləcəyi ünvanı təsdiq edən sənəd (mülkiyyət hüququnu təsdiq edən sənəd, icarə müqaviləsi və s.)

Vergilər Nazirliyi

### 2. NKA-nın qeydiyyata alınması

NKA-nın qeydiyyata alınması məqsədilə obyektin yerləşdiyi əraziyə xidmət edən vergi orqanına müvafiq ərizə və aşağıdakı sənədlər təqdim olunur:



- Servis texniki xidmət mərkəzinin (STXM-in) NKA-nın quraşdırılması barədə aktı;
- NKA-nın fiskal yaddaşının göstəricisini əks etdirən çek;
- NKA-da quraşdırılmış elektron ötürücülər barədə STXM-in aktı. Həmin akta NKA-nın fiskal yaddaşı dəyişdirildikdən sonra nümunə kimi 10 qəpiyə qədər məbləğdə NKA-ya mədaxil edilmiş dövriyyə barədə "Z" hesabatının surəti əlavə olunur.
- POS-terminalların quraşdırılması barədə sənəd.



## Diqqət!

**Dövlət reyestrinə daxil edilməmiş və ya həmin reyestrdən çıxarılmış, habelə POS-terminalların quraşdırılması məqsədəmüvafiq hesab edilən obyektlərdə POS-terminal quraşdırılmadan NKA-ların vergi orqanı tərəfindən qeydiyyata alınmasına yol verilmir.**

### 3. NKA-nın elektron qeydiyyatı

Vergi ödəyicisi və ya müqavilə əsasında STXM tərəfindən NKA-ların qeydiyyata alınması və qeydiyyatdan çıxarılması elektron formada aparıla bilər.




Birinci halda vergi ödəyicisi Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin (www.taxes.gov.az) "E-Xidmətlər" bölməsindəki "Nəzarət-kassa aparatının onlayn qeydiyyatı və qeydiyyatdan çıxarılması" adlı elektron xidməti seçərək "İnternet Vergi İdarəsi"nin"Onlayn kargüzarlıq və e-VHF" alt bölməsində öz istifadəçi kodu, parol və şifrəsi vasitəsilə sistemə daxil olmaqla NKA-nı elektron formada qeydiyyatdan keçirə bilər.

Nazirlər Kabinetinin 28 sentyabr 2012-ci il tarixli 215 nömrəli Qərarı ilə "Azərbaycan Respublikasının ərazisində nəzarət-kassa aparatlarının tətbiq olunması haqqında" Nazirlər Kabinetinin 1995-ci il 28 dekabr tarixli 266 nömrəli Qərarına əlavə və dəyişikliklər edilmiş və həmin əlavə və dəyişikliklərə əsasən texniki xidmət jurnalı və nəzarət-kassa aparatı işləmədiyi dövrdə aparılan əməliyyatların uçotu kitabının STXM-dən alınması NKA istehlakçılarının vəzifələrinə, NKA istismara verilən zaman NKA istehlakçılarını STXM-in səlahiyyətli nümayəndəsinin imzası və möhürü ilə təsdiq olunmuş jurnal və kitabla təmin etmək isə STXM-in vəzifələrinə aid edilmişdir. Vergi orqanlarında NKA-lar qeydiyyatdan keçirildikdən sonra hazırlanmış qeydiyyat vərəqəsi isə yalnız vergi ödəyicisi müraciət edərsə 2 iş günü ərzində kağız daşıyıcılarında vergi ödəyicisinə təqdim edilməlidir. Digər hallarda isə NKA-nın qeydiyyat vərəqəsi proqram təminatı vasitəsilə vergi ödəyicisinin e-qutusuna ötürülür.

## NKA tətbiq edən vergi ödəyicisi hansı tələblərə riayət etməlidir?

NKA tətbiq edən vergi ödəyicisi tərəfindən:

- əhali ilə nağd pul hesablaşmaları NKA istifadə etməklə aparılmalı;
- obyektində quraşdırılmış NKA-nın yaddaşına malın (işin, xidmətin) adı, ölçü vahidi, miqdarı və bir vahidinin qiyməti daxil edilməli;
- alınmış mallar, görülmüş işlər və göstərilmiş xidmətlər müqabilində alıcılara (sifarişçilərə) müvafiq məlumatları özündə əks etdirən kassa çeki təqdim edilməli;
- alıcıya təqdim edilən çeklərdə vergi ödəyicisinin adı, VÖEN-i, çekin vurulma tarixi və saatı, obyektin adı və yerləşdiyi ünvan, malın (işin, xidmətin) adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ, gün ərzində vurulmuş çeklərin sayı və nömrəsi, NKA-nın markası və zavod nömrəsi əks etdirilməli;
- alıcı kassa çeki ilə yanaşı malın (işin, xidmətin) qaimə-fakturasını tələb etdikdə, satıcı kassa çeki ilə birlikdə həmin sənədləri də alıcıya təqdim etməli;
- pos-terminal quraşdırılması məqsədəmüvafiq hesab edilən obyektlərdə POS-terminal quraşdırmalıdır (POS-terminal kart vasitəsilə malların, iş və xidmətlərin dəyərinin ödənilməsi, valyuta mübadiləsi əməliyyatlarının aparılması, habelə nağd pul vəsaitinin alınması üçün nəzərdə tutulmuş avadanlıqdır).

## Ciddi hesabat blankları olan qəbz nədir?

Qəbz - NKA tətbiq edilməli olmayan fəaliyyət növləri ilə məşğul olan vergi ödəyiciləri tərəfindən nağd pul hesablaşmalarını aparılmasında istifadə etdiyi, maliyyə-təsərrüfat fəaliyyətində əmtəə-pul dövriyyəsini özündə əks etdirən, forma və rekvizitləri Maliyyə Nazirliyi tərəfindən təsdiq edilən xüsusi seriya və nömrəsi olan ilkin uçot sənədidir.

## Qəbzlərdə hansı məlumatlar əks olunmalıdır?

Qəbzlərdə aşağıdakı zəruri rekvizitlər əks etdirilməlidir:

- qəbzlərin sifarişçisi olan fiziki şəxsin adı, soyadı, atasının adı və VÖEN-i, hüquqi şəxsin isə adı və VÖEN-i;
- qəbzi çap edən şəxsin adı və VÖEN-i, bu blankları təkrar çapdan müdafiə etmək məqsədi ilə gizli nişanları (xüsusi emblemi, toru, qoloqramı, su nişanları, xüsusi gizli nişanlarından istifadə etməklə, blankların müxtəlif yerlərində şəxsin adı və VÖEN-i);
- qəbzin adı, seriya və nömrəsi;
- təsərrüfat əməliyyatlarının məzmununu və ölçülərini əks etdirən məlumat qrafaları.

## Nağd pul hesablaşmalarını NKA tətbiq etmədən qəbzlər vasitəsilə həyata keçirməli olan fəaliyyət növləri hansılardır?

Nağd pul hesablaşmaları zamanı NKA-nın tətbiq edilməsi vergi ödəyicisinin həyata keçirdiyi fəaliyyət növündən asılıdır. Belə ki, mövcud qanunvericiliyə əsasən Vergi Məcəlləsinin 16.1.8-ci maddəsində göstərilən fəaliyyət növləri ilə, məsələn mehmanxana, hüquq, reklam, səhiyyə xidmətləri və s., habelə işçilərin sayı iki nəfərdən çox olmamaqla bərbərlik xidməti, foto xidməti, ayaqqabıların təmiri və bu kimi digər fəaliyyət növləri ilə məşğul olan vergi ödəyiciləri tərəfindən nağd pul hesablaşmaları zamanı NKA-nın tətbiq edilməsi məcburi xarakter daşımır. Bu fəaliyyət növləri ilə məşğul olan vergi ödəyiciləri nağd pul hesablaşmalarını qəbzlər vasitəsilə həyata keçirə bilərlər.

Bununla belə, qəbz tətbiq edilən fəaliyyət növləri ilə məşğul olan vergi ödəyicisi tərəfindən könüllü olaraq nağd hesablaşmalar NKA vasitəsilə apara bilərlər.

## Nağd pul hesablaşmalarının aparılma qaydasının pozulması zamanı hansı maliyyə sanksiyaları tətbiq edilir?

Nağd pul hesablaşmalarının aparılması qaydalarına əməl etmək vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir və bu vəzifələrin lazımınca yerinə yetirilməməsi qanunvericiliyə əsasən məsuliyyətə səbəb olur.

Belə ki, nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına görə vergi ödəyicisinə qarşı aşağıdakı məbləğlərdə maliyyə sanksiyaları tətbiq olunur (Vergi Məcəlləsi, maddə 58.7):

- il ərzində belə hallara birinci dəfə yol verildikdə - 400 manat
- il ərzində belə hallara ikinci dəfə yol verildikdə - 800 manat
- il ərzində üç və daha çox dəfə yol verildikdə - 1200 manat.

## Nağd pul hesablaşmalarının aparılması qaydasının pozulması zamanı hara müraciət edilməlidir?

Bu bukletdə qeyd edilənlərlə əlaqədar əlavə məlumat almaq istədikdə və ya hüquqlarınız pozulduğu halda 195 nömrəli Telefon Məlumat Xidmətinə zəng vuraraq 1 düyməsini seçməklə Vergilər Nazirliyinə (ödənişi təsdiq edən sənədlə əlaqədar), 2 düyməsini seçməklə İqtisadi İnkişaf Nazirliyinə (keyfiyyətsiz və digər məhsullarla əlaqədar) müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası
Vergilər Nazirliyi



# İŞƏ QƏBUL OLARKƏN ƏMƏK MÜQAVİLƏSİNİ TƏLƏB EDİN !

# KASSA ÇEKİNİ
# ALMAĞI UNUTMAYIN!







